*Yubilyarları təbrik edirik!*

# ETİBAR SEYFULLA OĞLU NOVRUZOV - 75



Novruzov Etibar Seyfulla oğlu 28 dekabr 1945-ci ildə Qərbi Azərbaycanda (indiki Ermənistan Respublikası) qulluqçu ailəsində anadan olmuşdur. 1964-cü ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) geoloji-kəşfiyyat fakültəsinə daxil olmuşdur.

O, İnstitutu 1969-cu ildə faydalı qazıntı yataqlarının geofiziki üsullarla axtarışı və kəşfiyyatı ixtisası üzrə müvəffəqiyyətlə bitirib dağ mühəndisi-geofizik peşəsinə yiyələnmişdir. 1969-cu ildən 1974-cü ilin aprel və 1976-cı ildən 1988-ci ilin sentyabrına qədər geofiziki təşkilatların elektrik-kəşfiyyatı partiyalarında böyük texnik-operator, geofizik-interpretator, böyük geofizik-interpretator və texniki rəhbər vəzifələrində çalışmışdır. Bu illər ərzində Azərbaycanda ilk dəfə olaraq maqnittellurik çöl analoq materiallarının elektron hesablama maşınlarında (ES-1020, ES-1040, ES-1061 və s.) emalı və interpretasiyasının müxtəlif metodik məsələləri həll edilmiş və onlarla alqoritm və proqram əsasında yaratdığı ERA-3, ERA-4, ERA-4M və Translate proqram dəstlərinin tətbiqini həyata keçirmişdir.

1974-1976-cı illərdə Türkmənistanın Geologiya İdarəsinin Təcrübi-Metodik Ekspedisiyasında tematik partiyanın böyük geoloqu vəzifəsində çalışmışdır. 1988-ci ildə Ümumittifaq Geofizika İnstitutunun cənub bölməsində dəyişən elektromaqnit sahələrini öyrənən elektrik kəşfiyyatı laboratoriyasının müdiri vəzifəsinə müsabiqə əsasında seçilmişdir.

1984-cü ilin may ayında namizədlik dissertasiyası müdafiə etmiş, həmin ildə ona geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsi verilmişdir.

1988-1992-ci illər ərzində ÜETGİ-nin cənub bölməsində elektrik kəşfiyyatı laboratoriyasında aparılan tədqiqatlar fiziki və riyazi modellərdən istifadə etməklə qeyri-bircins anizotrop mühitlərdə təbii dəyişən elektromaqnit sahələrinin struktur və neft geologiyası məsələlərinin həllinin tətbiqinə həsr edilmişdir. 1970-ci ildən 2015-ci il də daxil olmaqla aparılmış tədqiqatlar, metodik işləmələr, beynəlxalq konfransların tezisləri dərc olunmuş 78 elmi əsərdə və 30 elm-istehsalat hesabatında öz əksini tapmışdır.

2001-2002-ci illərdə MDB mütəxəssisləri arasında ilk dəfə olaraq elektrik kəşfiyyatının MTZ üsulunda tezlik-zaman kəsilişinin qurulması əsasında materialların interpretasiyası təmin edilmişdir.

1992-1993-cü illərdə Azərbaycan Dövlət Neft Şirkətinin (ARDNŞ) "Azərigeofizika" Baş İdarəsində kəşfiyyat geofizikası şöbəsinin rəisi, 1993-1994-cü illərdə ARDNŞ-in Dənizdə Neft və Qazçıxarma İB-də mühəndis, 1994-1996-cı illərdə geoloji şöbənin rəis müavini vəzifələrində çalışmışdır.

1997-ci ildə müqavilə əsasında, 1998-ci ildən 2006-cı ilin yanvar ayına kimi Geofizika və Mühəndis Geologiyası İB-də "İstehsal proseslərinin kompüterləşdirilməsi və riyazi təminat

şöbəsi"nin, daha sonra isə 2006-cı ilin yanvarından 2009-cu ilin may ayının 22-nə kimi ARDNŞ-in Geofizika və geologiya İdarəsinin "İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi şöbəsi"nin rəisi vəzifələrində işləmişdir.

İnformasiya-kommunikasiya texnologiyaları ilə məşğul olan illərdə ARDNŞ-in İdarələri arasında ilk dəfə olaraq lokal və qlobal kompüter şəbəkələrinin qurulması, uzaqdan daxilolma prinsipi əsasında Geofizika və Mühəndis Geologiyası İstehsalat Birliyinin Abşeron yarımadasının müxtəlif yerlərində yerləşən təşkilatlarının baş ofisə qoşulması təmin edilmişdir.

E.Novruzov digər həmmüəlliflərlə birgə 2006-ci ilin iyun ayının 30-da "Zəlzələlərin proqnozlaşdırılması üsulu" adlı 007086 saylı Evraziya patenti, 2017-ci ildə isə həmmüəlliflərlə birgə "Kəmərsiz quyularda fərz olunan xüsusi müqavimətlərin təyin edilməsi üsulu" adlı Azərbaycan Respublikası Əqli Mülkiyyət agentliyinin i2020 0054 saylı patenti verilmişdir.

E.Novruzov həmçinin pedagoji fəaliyyətlə də məşğul olmuşdur. 2009-cu ilin dekabr ayından 2011-ci ilin sentyabr ayına kimi Bakı Dövlət Universitetində "Seysmologiya və Yer təkinin fizikası" kafedrasında, 2013-cü ildən 2019-cu ilədək Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin, Geoloji-kəşfiyyat fakültəsinin "Geofizika" kafedrasında dosent vəzifəsində çalışmışdır.

***Hörmətli Etibar müəllimə Geofizika və Geologiya İdarəsinin rəhbərliyi və kollektivi, həmçinin "Azərbaycanda Geofizika Yenilikləri" jurnalının redaksiya heyəti adından möhkəm can sağlığı, uzun ömür və yeni-yeni uğurlar arzu edirik!***